

Doğma, canım-varlığım qədər
sevdiyim Azərbaycanım
mənim qibləgahımdır

# ŞƏRQ qapısı


Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 160 (21.821)

24 avqust 2017-ci il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiymәti 20 qəpik


## Rəsmi xronika

Avqustun 23-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakının Xətai rayonundakı 257 nömrəli tam orta məktəbin əsaslı təmir edilən və yenidən qurulan mövcud binasında, həmçinin yeni tikilən korpusunda yaradılan şəraitlə tanış olub.

Yeni korpusda görülən işlər barədə dövlətimizin başçısına məlumat verilib. Bildirilib ki, məktəbin 1176 şagird yerlik mövcud korpusu 1974-cü ildən fəaliyyət göstərir. Bu təhsil ocağının mövcud korpusu Prezident İlham Əliyevin 2011-ci ildə imzaladığı Sərəncamla təsdiq edilmiş "2011-2013-cü illərdə Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı"nın Tədbirlər Planına uyğun olaraq əsaslı təmir edilib. Burada şagirdlərin yüksək səviyyədə təhsil almaları üçün hərtərəfli şərait yaradılıb, otaqlar zəruri dərs vəsaitləri ilə təchiz edilib.

Yeni korpus Prezident İlham Əliyevin 2014-cü ildə imzaladığı Sərəncamla təsdiq edilmiş "2014-2016-cı illərdə Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı"nın Tədbirlər Planında təhsil sahəsi üzrə nəzərdə tutulmuş tədbirlərin icrasına uyğun olaraq inşa edilib. Burada 24 sinif otağı, 1 informatika kabineti, fizika, kimya və biologiya laboratoriyaları var.



## Muxtar respublikanın məşğulluq strategiyasının əsasını əmək potensialından düzgün istifadə təşkil edir

***İnsan resursları istənilən ölkənin inkişafı üçün mühüm amildir və bu resurslar əmək bazarında tutduğu vəzifədən və həmin vəzifənin funksiyalarından asılı olmayaraq, bütün işçiləri əhatə edir. Bu amildən səmərəli istifadə olunması cəmiyyətin ümumi inkişafına töhfə verir.***

Ölkəmizdə də indiyədək həyata keçirilmiş sosial-iqtisadi tədbirlərin mahiyyətində insan amili diqqət mərkəzində saxlanıldığından qazanılmış müsbət nəticələrdə əmək potensialından düzgün istifadə olunması bir daha özünü göstərir. Belə ki, indiyədək bu sahədə qəbul edilmiş dövlət proqramlarının mahiyyətində məqsəd bir tərəfdən müxtəlif sahələrin inkişaf etdirilməsi ilə bağlıdırsa, digər tərəfdən də potensial insan resursları ilə əlaqəlidir.

Azərbaycanda həyata keçirilən dövlət siyasətinin daha çox sosialyönümlü olması və bu sahədə dəqiq hədəflərin müəyyənləşdirilməsi ölkəmizin gələcək inkişafının davamlı xarakter daşımasını şərtləndirir. Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 29 dekabr tarixli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasında əks olunmuş mühüm istiqamətlərdən biri də insan kapitalının inkişafı və səmərəli sosial müdafiə sisteminin qurulmasıdır.

Bu sistemin formalaşdırılmasında təhlükəsiz və sağlam əmək şəraitinin təmin olunması ilə yanaşı, əhalinin məşğulluq məsələlərinin həlli də mühüm yer tutur. Qeyd edək ki, ötən dövrdə Naxçıvan Muxtar Respublikasında da əhalinin səmərəli məşğulluğunun təmin edilməsi sahəsində mühüm işlər görülür. Belə ki, muxtar respublikada 2007-2010-cu illərdə məşğulluq strategiyasının həyata keçirilməsi və 2014-2015-ci illərdə əhalinin məşğulluğunun artırılması üzrə dövlət proqramlarının uğurlu icrası məşğulluq məsələlərinin həllini keyfiyyətcə yeni mərhələyə çıxarıb. Əgər 1995-ci ilin sonuna məşğulluq xidmətlərində rəsmi işsiz statusu alanların sayı 5 min 211 nəfər təşkil edirdisə, hazırda bu göstərici sıfır səviyyəsinə endirilib, əmək bazarında sabitlik təmin olunub.

Statistikaya nəzər salsaq, görərik ki, "Naxçıvan Muxtar Respublikasının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın əsas yekunlarına görə, bu dövrdə muxtar respublikada 22 min 296 yeni, o cümlədən 19 min 215 daimi iş yeri açılıb. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2013-cü il 18 dekabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "2014-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı"nın icrası isə işaxtaranların səmərəli məşğulluğu üçün əlverişli şərait yaradıb, əmək bazarının tələbinə uyğun peşə hazırlığının təşkilinə, işaxtaran və işsiz şəxslərin sosial müdafiəsinin gücləndirilməsinə geniş imkanlar açıb.

Həyata keçirilən tədbirlər nəticəsində muxtar respublikada 6364 yeni iş yeri açılıb, əmək bazarında tələb və təklifin müəyyənləşdirilməsi üzrə təhlillər aparılıb, 5537 işaxtaran müəssisələrdə mövcud olan vakansiyalar üzrə işlə təmin edilib, 627 nəfər ictimai işlərə göndərilib, əmək bazarının tələbinə uyğun olaraq işaxtaranlar üçün təşkil olunan peşə kurslarına 7595 nəfər cəlb edilib. Həmin dövrdə sosial cəhətdən həssas əhali qruplarının məşğulluğu da diqqətdə saxlanılıb, 158 nəfər kvota yerlərinə, sağlamlıq imkanları məhdud 171 nəfər münasib işlərə göndərilib, məhdud fiziki imkanlı 161 nəfər peşə kurslarına cəlb olunub. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin növbəti və daha uzun müddəti əhatə edən, 2016-cı il 11 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmiş "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı" isə əhalinin sosial müdafiəsinin daha da gücləndirilməsinə, işaxtaranların məşğulluğunun təmin edilməsinə, əmək bazarının tələbinə uyğun peşə hazırlığının təşkilinə imkan verən və işaxtaranların səmərəli məşğulluğu üçün əlverişli şəraitin yaradılmasına səbəb olan və qarşıdakı illərdə regionun məşğulluq strategiyasını müəyyənləşdirən mühüm konsepsiyadır. Dövlət proqramında göstərilən istiqamətlərə nəzər yetirdikdə aydın olur ki, müasir mərhələdə dövlət məşğulluq siyasətinin davam etdirilməsinin əsas məqsədi əhalinin səmərəli məşğulluğunun inkişafına yönəldilən tədbirlərin davamlılığının təmin edilməsi, əmək ehtiyatlarının əmək bazarına uyğun formalaşdırılması, işaxtaranlar üçün özünüməşğulluq imkanlarının artırılması, əmək bazarında tələb və təklifin real vəziyyətinin qiymətləndirilməsi üçün təhlillərin aparılmasıdır.

Peşə hazırlığının əmək bazarının dəyişən tələblərinə uyğunlaşdırılması, işaxtaranların, o cümlədən sosial müdafiəyə xüsusi ehtiyacı olan şəxslərin məşğulluğunun təmin edilməsinə köməklik göstərilməsi də əsas məqsədlərdəndir. Rəqəmlərə diqqət yetirsək, görərik ki, 2016-cı ildə qəbul edilmiş dövlət proqramının icrasının birinci ilində 2 min 818 yeni iş yeri açılıb ki, bunun da 98 faizi daimi iş yerləri olub.

Muxtar respublikada həyata keçirilən aktiv məşğulluq tədbirlərindən biri də əmək yarmarkalarıdır. Yeni dövlət proqramının icrası çərçivəsində Dövlət Məşğulluq Xidməti orqanları tərəfindən 2017-ci ilin aprel ayında muxtar respublikamızın bütün bölgələrində əmək yarmarkaları təşkil olunub. Bu məqsədlə muxtar respublika ərazisində fəaliyyət göstərən idarə, müəssisə və təşkilatlarda olan boş iş yerləri haqqında məlumatlar əldə edilərək məşğulluq mərkəzləri tərəfindən yarmarkaya çıxarılıb. Keçirilən əmək yarmarkalarına 125-i özəl sektor olmaqla, 229 idarə, müəssisə və təşkilatdan 1608 boş iş yeri təqdim edilib. Təqdim olunmuş iş yerlərindən 1305-i dövlət, 303-ü qeyri-dövlət müəssisələrinə aid olub. Əmək yarmarkalarında 206 nəfər daimi işlə təmin edilib, 125 nəfər dövlət müəssisələrində, 81 nəfər isə özəl sektorda işə düzəlib. Onlardan 61 nəfəri 29 yaşadək gənc, 5 nəfəri isə sağlamlıq imkanları məhdud şəxsdir. Keçirilən əmək yarmarkalarında 16 nəfər peşə hazırlığı kurslarına cəlb edilib ki, onlardan 14 nəfəri kənd xidmət mərkəzlərində işlə təmin olunmaq üçün kurslara göndərilib.

Bu ilin iyul-avqust aylarında da əmək yarmarkaları keçirilib. Dövlət Məşğulluq Xidmətinin verdiyi məlumata görə, əmək yarmarkalarına 231 idarə, müəssisə və təşkilatdan, o cümlədən 63-ü özəl sektor olmaqla, 1669 boş iş yeri təqdim edilib. Həmin boş iş yerlərindən 1274-ü dövlət, 200-ü qeyri-dövlət müəssisələrinə aid olub. Əmək yarmarkalarında 96-sı dövlət, 89 nəfəri isə özəl sahədə olmaqla, ümumilikdə, 185 nəfər daimi işlə təmin edilib. Onlardan 176 nəfəri fəhlə, 9 nəfəri isə xidmət sahələrində çalışır. Gənclər və sağlamlıq imkanları məhdud şəxslərin məşğulluğunun təmin olunması da diqqət mərkəzində saxlanılıb. Onlardan 54 nəfəri 29 yaşadək gənc, 1 nəfəri isə sağlamlıq imkanları məhdud olan şəxsdir. Sonuncu əmək yarmarkalarında 4 nəfər peşə hazırlığı kurslarına cəlb edilib.

İqtisadi fəaliyyətin təmin olunmasında əmək potensialından düzgün istifadə mühüm şərtdir. Əmək yarmarkalarının təşkil olunması da müasir iqtisadi reallıqlar nəzərə alınmaqla əmək ehtiyatlarının əmək bazarına uyğunlaşdırılmasında yeni imkanları ortaya qoyur.

✍ **Səbuhi HƏSƏNOV**

***Muxtar respublikamızda həyata keçirilən quruculuq tədbirlərinin bir istiqamətini də ictimai yaşayış binalarının təmir olunması və yenidən qurulması təşkil edir. Bu tədbirlərin davamı olaraq Şərur şəhərinin Heydər Əliyev prospektindəki 35 nömrəli binada "Cahan İnşaat" Məhdud Məsuliyyətli Cəmiyyətinin inşaatçıları tərəfindən əsaslı təmir işləri aparılır.***

## İctimai yaşayış binasında təmir işləri aparılır



Avqustun əvvəlindən yenidən qurulmasına start verilən 60 mənzilli binada ilkin mərhələdə fasad hissənin suvağı sökülür, eyvanlardakı qapı və pəncərələr çıxarılır, xüsusi konstruksiyalarla bərkidilir. Sonra isə təzə qapı-pəncərələr asılacaq, fasad hissəyə layihəyə uyğun olaraq xüsusi lövhələr, bəzi yerlərə isə metal təbəqə bərkidiləcəkdir.

Görülən bütün işlərdə, ilk növbədə, milli ornamentlərə üstünlük verilir.

Dəhlizlərdə də əsaslı təmir işləri aparılacaq, mərtəbələrarası pilləkənlər və dəmir istinad çəpərləri, giriş qapıları dəyişdiriləcək, döşəməyə travertin üzlüklər döşənəcək, mənzillərə daxil olan su, kanalizasiya və elektrik xətləri yenilənəcəkdir.

Əsaslı təmir işlərinin qısa müddətdə başa çatdırılması nəzərdə tutulub.

**Mehman MƏMMƏDOV**

## Culfa rayonunda sığorta fəaliyyətinin təşkili müzakirə olunub

Avqustun 23-də Culfa Rayon İcra Hakimiyyətində Naxçıvan Muxtar Respublikası Dövlət Baş Sığorta Agentliyi tərəfindən rayonda sığorta işinin təşkili və qarşıda duran vəzifələr barədə tədbir keçirilib.

Rayon İcra Hakimiyyətinin başçısı Şükür Babayev tədbiri açaraq son dövrdə Culfada sığorta fəaliyyəti sahəsində görülmüş işlər haqqında danışıb.

Tədbirdə Naxçıvan Muxtar Respublikası Dövlət Baş Sığorta Agentliyinin baş direktoru Hikmət Əsgərov çıxış edərək müasir dövrdə muxtar respublikada sosial-iqtisadi inkişafın dinamikasına uyğun olaraq sığorta işinin də geniş miqyas aldığını bildirib. Qeyd olunub ki, sığorta baş verən gözlənilməz hadisələrin vura biləcəyi zərərlərə qarşı hazırlıqlı olmağa şərait yaradır. Hazırda sığortanın bir çox növlərinin tətbiq olunması günün tələblərindəndir. Muxtar respublikamızda sığorta işinin təkmilləşdirilməsi və müasir tələblərə uyğun şəkildə genişləndirilməsi işində 30 noyabr 2011-ci il tarixdə Naxçıvan Muxtar Respublikası Ali Məclisində "Muxtar respublikada sığorta fəaliyyəti və qarşıda duran vəzifələr barədə" keçirilən müşavirənin xüsusi əhəmiyyəti vardır.

Bildirilib ki, vətəndaşlar sığorta olunmaqla sığorta hadisələri baş verdiyi zaman sağlamlığa, daşınmaz əmlaka, avtomobillərə, kənd təsərrüfatı məhsullarına dəymiş maddi zərərlərə qarşı təminat alırlar. Bu da onların təhlükəsizlik təminatı baxımından çox əhəmiyyətlidir.

Vurğulanıb ki, Culfa rayonu üzrə cari ilin ilk 7 ayında, ümumilikdə, 4149 ədəd sığorta müqaviləsi bağlanılıb. Onlardan 861-i avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası, 2241-i isə daşınmaz əmlakın icbari sığortası üzrədir.

Baş direktor həmçinin qeyd edib ki, bunlarla yanaşı, rayonda daşınmaz əmlakın icbari sığortası, daşınmaz əmlakın istismarı ilə bağlı mülki məsuliyyətin icbari sığortası, avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası, ev əmlakı, fərdi qəza, kənd təsərrüfatı sığortaları və digər sığorta növləri üzrə görülmüş işlərlə bərabər, hələ də daşınmaz əmlakını icbari sığorta etdirməyən vətəndaşlar və sahibkarlar vardır.

Nəzərə çatdırılıb ki, ölkəmizdə qüvvədə olan qanuna əsasən icbari qaydada sığorta olunmalı bütün obyektlərin sığortası təmin edilməlidir. Bu məqsədlə Culfa rayonunda vətəndaşlar arasında sığorta maarifləndirilməsi işlərinə diqqət daha da artırılmalıdır.

Tədbirdə Culfa Rayon Yanğın Təhlükəsizliyi Şöbəsinin rəis müavini Murad Qafarov, rayon Polis Şöbəsinin İctimai Təhlükəsizlik Bölməsinin rəisi, polis kapitanı Tariyel Əliyev, rayon Dövlət Sığorta Agentliyinin direktoru Teymur Hacıyev görülmüş işlər barədə məlumat veriblər.

Culfa Rayon İcra Hakimiyyətinin başçısı Şükür Babayev tədbirə yekun vurub.

✍ **Əli CABBAROV**

İstehsal müəssisələri

# Süfrələrin əvəzsiz neməti – Naxçıvan duzu

***Qədim Naxçıvan torpağı yeraltı və yerüstü sərvətləri, əvəzolunmaz nemətləri ilə zəngindir. Bu diyarın havası, suyu, torpağında bitən bitkiləri, necə deyərlər, dərdlərə dərman, qəlblərə məlhəmdir. Bir sözlə, Tanrı bu məmləkətə bir-birindən dəyərli faydalı qazıntılar bəxş edib. Bu nemətlər arasında duzun xüsusi yeri vardır.***

Bu gün mağazalarda cüzi qiymətə satılan duzun, əslində, necə böyük zəhmət və alın təri hesabına istehsal olunduğunu çoxumuz bilmirik. “Yüz dəfə eşitməkdənsə, bir dəfə görmək yaxşıdır”, – deyiblər. Elə bu düşüncəylə ötən günlərdə həmin ünvana yol aldıq. İlk öncə “Naxçıvan Duz İstehsalı” Məhdud Məsuliyyətli Cəmiyyətinin direktoru Anar Əsədullayevlə söhbət etdik. O, bizimlə söhbətində bildirdi ki, bu ərazidə hələ qədimdən primitiv üsulla duz çıxarılıb. Həmin duz məişətdə istifadə olunmaqla yanaşı, mübadilə vasitəsi kimi Böyük İpək Yolu ilə Şərq və Qərb ölkələrinə aparılıb. Bu mənada, duz həm də yaxşı gəlir mənbəyi hesab olunub. Duzdağ yatağından sənaye üsulu ilə duzun çıxarılmasına ilk dəfə 1927-ci ildə başlanılıb. Sovet dönəmində bu sənaye müəssisəsində istehsal edilən daşduz ittifaq respublikalarına göndərilib. 1988-ci ildən sonra bu sənaye müəssisəsinin fəaliyyəti tamamilə dayanıb, nəticədə, müəssisənin əmlakı dağıdılıb, təcrübəli mədənçilər işsiz qalıblar. Lakin ölkəmiz dövlət müstəqilliyi əldə etdikdən sonra bütün sahələrlə yanaşı, bu sahədə də vəziyyət dəyişdi. Belə ki, dahi rəhbər Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra yeraltı və yerüstü sərvətlərlə zəngin olan muxtar respublikamızın təbii resurslarından, eləcə də duz mədənlərindən səmərəli istifadə






olunmağa başlandı.

Ötən müddət ərzində duz mədənində tikinti-quraşdırma, yenidənqurma, təmir-bərpa, abadlıq işləri aparılıb, istismarı dayanmış və uzunluğu 1700 metr olan 1 nömrəli şaxta, eləcə də mövcud 2 duz emalı sexi müasir texnoloji avadanlıqlarla təmin edilib, müəssisə yenidən qurularaq istifadəyə verilib. 2005-ci ildə isə istehsal gücü gündə 7 və 20 ton olan 2 yeni duz emalı sahəsi tikilərək istehsala başlanıb. Burada bütün istehsal prosesi avtomatlaşdırılıb, paketləyici avadanlıq quraşdırılıb. 2010-cu ildə 3 ədəd rəqəmsal yodvuran, 2 ədəd tarixvuran və 1 ədəd duzpaketləyən avadanlıq alınıb gətirilib. Beləliklə, əl əməyi yüngülləşdirilib, yüksəkkeyfiyyətli məhsul istehsalı ilə yanaşı, bu məhsulun vaxtında sifarişçilərin ünvanlarına çatdırılması da təmin edilib. Duz istehsalı üçün yaradılan sahələr Naxçıvanın duz yataqlarının istismarı tarixində qurulan ilk müasir istehsal sahələridir.

Bu gün duz mədənində yeni texnoloji avadanlıqlarla təmin edilmiş 4 duz emalı sahəsi fəaliyyət göstərir, istehsal edilən məhsul “Duzdağ” əmtəə nişanı ilə satışa çıxarılır. Müəssisənin ixrac potensialı ildən-ilə genişləndirilir. Xammalın çıxarılmasından satışa göndərilməsinədək bütün texnoloji proseslərə, istehsal edilən duzun keyfiyyətinə və sanitar-gigiyenik qaydalara ciddi əməl olunur. Burada laboratoriya da fəaliyyət göstərir. Bu ilin ötən dövrü ərzində 1118 ton narın duz, 2670 ton daşduz istehsal edilib, 1249 ton narın duz, 1055 ton daşduz satılıb.

Müəssisənin rəhbəri ilə söhbətimizi bitirib, mədənə doğru irəlilədik. Şaxtanın girişində bizi mədən işçilərindən Müseyib Babayev qarşıladı və bələdçilik etdi. Onunla yolboyu həmsöhbət olduq. Bildirdi ki, 30 ilə yaxındır ki, mədəndə şaxtaçı kimi çalışır. Bura ona çox doğmadır. Mədənə o qədər öyrəşib ki, şaxtadan kənarda çox qalanda özünü yaxşı hiss etmir. Deyir şaxtaçı olmaq asan deyil. Bunun üçün gərək, fiziki güclə yanaşı, möhkəm iradən də ola.

Duz mədənində olduğumuz müddətdə qazmaçı işləyən Ceyhun Hüseynovla da söhbət etdik. O, söhbət zamanı dedi:

– Qazma işi dözüm tələb edir. Uzun müddətdir, bu işlə məşğul olduğumdan işləmək mənim üçün çətin deyil. Böyük zəhmət tələb edən işdə çalışsaq da, aldığımız yaxşı məvacib hesabına ailəmizi dolandırır, gün-güzəranımızı qururuq.

Mədən işinə ömrünün 20 ilini sərf etmiş Vüqar Abbasov deyir ki, şaxtaçı işi çətin olduğu kimi, həm də şərəfli peşədir. Duz çıxarılan əraziyə çatmaq üçün yerin altı ilə 1500 metr getməli olursan. Çıxarılan duz kollektiv əməyin məhsuludur. Şaxtaya girən hər kəs bir-birinə hər çətinlikdə kömək olmalı, necə deyərlər, ağır yükün altına çiyinlərini verməlidir. Belə olmasa, iş getməz. Burada çalışanların əksəriyyəti təcrübəli işçilərdir. Elə buna görə də işimiz rahat və təhlükəsiz keçir. İçəridə işçilərin kənara çıxmadan istirahət edə bilmələri üçün guşə də yaradılıb.

Duz yükü ağır olar, – deyirlər. Mədəndə olarkən şahidi olduq ki, bu ağır yükün altına çiyinlərini verənlər üçün hər cür şərait yaradılıb. Bu şərait isə onlara bütün çətinliklərin öhdəsindən gəlməyə imkan verir.

✍ **Nail ƏSGƏROV**

# Baytarlıq xidmətinin düzgün təşkili ərzaq təhlükəsizliyinin təminatında mühüm amildir

***Heyvandarlıq məhsulları hər birimizin gündəlik qida rasionunda mühüm yer tutur. Çünki bu məhsulların tərkibi insan orqanizminə lazım olan zülal, yağ və vitaminlərlə zəngindir. Ancaq etiraf etmək lazımdır ki, insan sağlamlığı da məhz qəbul edilən bu məhsulların tərkibinin keyfiyyətli olmasından asılıdır. Əks-təqdirdə müxtəlif xəstəliklərə yoluxmağımız da qaçılmaz olar.***

Araşdırmalar nəticəsində məlum olub ki, heyvanlarda olan yoluxucu xəstəliklərin 60 faizinin insanlara keçmə ehtimalı var. Məhz buna görə də heyvandarlıq məhsullarının sağlam tərkibinə zəmanət verilməsi baytarlıq xidmətinin nə qədər zəruri bir sahə olduğunu göstərir. Əbəs yerə deyilmir ki, səhiyyə insanları, baytarlıq isə bəşəriyyəti müalicə edir. Bəlkə də buna görədir ki, bu sahədə aparılan işlər tibdən daha çətindir. Ona görə ki, həkim öz pasiyentini müalicə edərkən onunla və yaxud yaxınları ilə söhbət edərək xəstəlik haqqında məlumatlar almaq imkanına malikdir, baytar həkimlərin isə belə imkanları məhduddur. Buna görə də baytar həkimlər bilik və təcrübəyə əsaslanmaqla, həm də yüksək hiss və duyarlılıq keyfiyyətlərinə malik olmalıdırlar. Bu baxımdan müasir dövrdə istehlakçıların təhlükəsiz heyvandarlıq məhsulları ilə təminatında baytarlıq xidmətlərinin rolu böyükdür. Eyni zamanda hazırda bütün ölkələr üçün strateji sahə hesab edilən ərzaq təhlükəsizliyi məsələlərinin həlli yüksəkkeyfiyyətli baytarlıq xidmətinin təşkilindən birbaşa asılıdır. Bəs cari ilin ötən dövründə muxtar respublikada bu xidmətin fəaliyyəti necə təşkil olunub? Suala cavab almaq üçün bu günlərdə Naxçıvan Muxtar Respublikası Dövlət Baytarlıq Xidmətində olduq.

Xidmətin rəisi Əbil Əbilov bizimlə söhbətində bildirdi ki, muxtar respublikada keyfiyyətli baytarlıq xidmətinin təşkili hər zaman diqqət mərkəzində saxlanılıb. Bu sahədə lazımi infrastrukturun yaradılması, maddi-texniki bazanın gücləndirilməsi qısa müddətdə muxtar respublikanın hər bir bölgəsində mühüm baytarlıq tədbirlərinin həyata keçirilməsinə geniş imkanlar açıb. Müsahibimiz dedi ki, muxtar respublikada hazırda 1 Elmi-Tədqiqat Baytarlıq Mərkəzi, 8 Baytarlıq İdarəsi, 7 baytarlıq laboratoriyası, 9 baytar-ekspertiza laboratoriyası və 168 baytarlıq məntəqəsi fəaliyyət göstərir. Baytarlıq xidmətinin daha da yaxşılaşdırılması məqsədilə ötən dövrdə Naxçıvan Muxtar Respublikası Dövlət Baytarlıq Xidmətinin, Elmi-Tədqiqat Baytarlıq Mərkəzinin binaları və Xüsusi təhlükəli xəstəliklərin diaqnostik müayinəsi laboratoriyası yenidən qurulub, laboratoriyada müayinələrin aparılması üçün yeni şöbə yaradılıb və müasir avadanlıqlarla təmin edilib. Bildiyiniz kimi, muxtar respublika əhalisinin 70 faizi kəndlərdə yaşayır və bu əhalinin çox hissəsi heyvandarlıqla məşğul olur. Bu baxımdan kənd yaşayış məntəqələrində baytarlıq xidmətinin lazımi şəkildə təşkili dövlətimiz tərəfindən həyata keçirilən tədbirlərin tərkib hissəsidir. Bu cür yaşayış məntəqələrində baytar həkimlərin fəaliyyəti üçün hərtərəfli şərait yaradılır, baytar məntəqələri lazımi avadanlıqlarla təmin edilir. Bu isə onun göstəricisidir ki, indi kəndli baytarlıq xidməti üçün rayon mərkəzinə və yaxud muxtar respublika paytaxtına gəlmir, elə yaşadığı ərazidə bu xidmətdən istifadə edə bilir.

Həmsöhbətimiz onu da vurğuladı ki, baytarlıq sahəsi göstərilən dövlət qayğısı sayəsində özünün yeni inkişaf mərhələsinə qədəm qoyub. Regionda baytarlıq xidmətinin daha da yaxşılaşdırılması istiqamətində kompleks tədbirlər həyata keçirilir, baytarlıq tədbirlərinin vaxtında və mütəşəkkil aparılması üçün dövlət vəsaiti hesabına dərman preparatları alınaraq muxtar respublikaya gətirilir. Dərman preparatları soyuducu kameralarda müəyyən olunmuş temperaturda saxlanılır, “soyuq zəncir” prinsipinə əməl edilməklə xüsusi maşınlar vasitəsilə rayon baytarlıq idarələrinə çatdırılır. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən bu ilin iyul ayının 5-də Dövlət Baytarlıq Xidmətində keçirilən səyyar müşavirədə qarşımıza bir çox mühüm tapşırıqlar qoyulmuşdur. Əsas məqsədimiz verilmiş tapşırıqlara uyğun olaraq mövcud mal-qaranın cins tərkibinin yaxşılaşdırılması, məhsuldarlığın yüksəldilməsi, təbii yolla keçən xəstəliklərin qarşısının alınması məqsədilə süni mayalanma tədbirlərinin əhatə dairəsinin və əhali arasında maarifləndirmə işlərinin genişləndirilməsidir. Buna görə də çalışacağıq ki, qeyd olunan istiqamətlər üzrə fəaliyyətimizi bundan sonra da gücləndirək.

Xidmətin əməkdaşı Şəmsəddin Nağıyev isə 2017-ci ilin birinci yarımilində görülmüş işlərlə bağlı bizi məlumatlandırdı. Onun dediklərindən: “Cari ilin ilk 6 ayında diaqnostik olaraq bruselyoz xəstəliyini müayinə məqsədilə 40 min 804 baş iribuynuzlu, 53 min 333 baş xırdabuynuzlu, 12 min 105 baş törədici heyvanlardan qan nümunələri götürülərək baytarlıq laboratoriyalarında seroloji müayinədən keçirilib. Eyni zamanda manqo xəstəliyinə görə 150 baş təkdırnaqlı, epididimit xəstəliyinə görə 12 min 105 baş törədici heyvanda, vərəm xəstəliyinə görə 2762 baş iribuynuzlu heyvanda diaqnostik müayinələr aparılıb.

Profilaktik məqsədlə kənd təsərrüfatı heyvanları arasında qarayara xəstəliyinə qarşı 89 min 551 baş iribuynuzlu, 522 min 508 baş xırdabuynuzlu, 3634 baş təkdırnaqlı, dabaq xəstəliyinə qarşı 83 min 379 baş iribuynuzlu, 338 min 717 baş xırdabuynuzlu, emkar xəstəliyinə qarşı 75 min 517 baş iribuynuzlu, bradzot xəstəliyinə qarşı 39 min 422 baş xırdabuynuzlu, pasterellyoz xəstəliyinə qarşı 5646 baş iribuynuzlu, 105 min 306 baş quşlarda, nodulyar dermatit xəstəliyinə qarşı 85 min 608 baş iribuynuzlu, nyukasl “H” (taun) xəstəliyinə qarşı 438 min 608 baş quşlarda, lasota ilə 248 min 20 baş cücələrdə, aueski xəstəliyinə qarşı 46 min 886 baş iribuynuzlu, bruselyoz xəstəliyinə qarşı 114 min 670 baş xırdabuynuzlu heyvanlarda peyvəndləmə tədbirləri aparılıb və hazırda da bu işlər davam etdirilir”.

Şəmsəddin Nağıyev onu da bildirdi ki, qeyd olunan dövrdə muxtar respublikanın bütün yaşayış məntəqələrində, o cümlədən mal-qara saxlanılan tövlələrdə, heyvanların yataq yerlərində, quş damlarında olmaqla, ümumilikdə, 1134 obyektdə 285 min 569 kvadratmetr sahədə dezinfeksiya tədbirləri həyata keçirilib.

Onu da öyrəndik ki, hazırda muxtar respublikada 23 süni mayalanma məntəqəsi fəaliyyət göstərir ki, bu məntəqələrdə 26 nəfər süni mayalanma texnikləri çalışır. Cari ilin yanvar ayından iyul ayının 1-dək 5165 baş iribuynuzlu heyvanda mayalanma tədbirləri həyata keçirilib, 3807 baş buzov alınıb.

Müasir dövrdə kənd təsərrüfatının inkişaf etdiyi Qərb ölkələrində baytarlıq mühüm xidmət sahəsi kimi tanınır. Çünki ərzaq təhlükəsizliyinin təmin olunmasında, yüzlərlə çeşiddə heyvandarlıq məhsullarının ixrac və idxalında, müxtəlif xəstəliklərin qarşısının alınmasında baytarlıq xidməti böyük əhəmiyyət kəsb edir. Dövlət Baytarlıq Xidmətində olduğumuz zaman hər iki müsahibimizlə muxtar respublikamızda baytarlıq xidmətinin müasir vəziyyətindən, kadr hazırlığından, dövlətimizin bu sahəyə göstərdiyi qayğıdan, xidmətin təşkili üçün yaradılmış şəraitdən xeyli danışdıq. Ümumi gəldiyimiz nəticə bu oldu ki, muxtar respublikamız aqrar region olduğundan baytarlıq xidmətinin yüksək səviyyədə təşkili bu gün qarşıda duran ən böyük vəzifələrdən biridir. Çünki muxtar respublikamızın iqtisadi inkişafında kənd təsərrüfatı sahəsi daha böyük paya malikdir. Bu isə istehsal olunan kənd təsərrüfatı məhsullarının daha keyfiyyətli, təhlükəsiz olmasını zəruri edir. Muxtar respublikada həyata keçirilən tədbirlər bu sahənin də nümunəvi inkişafına imkan verir.

✍ **S.HƏSƏNOV**

## Kənd təsərrüfatı əsas məşğuliyyət sahəsinə çevrilib

Şahbuz rayonunda son illər aqrar sahədə əldə edilən nailiyyətlər nəzərəçarpacaq dərəcədə diqqət çəkir. Rayon İcra Hakimiyyətindən aldığımız məlumata görə, “Kənd təsərrüfatı məhsullarının istehsalçılarına dövlət dəstəyi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 23 yanvar tarixli Sərəncamının icrası ilə bağlı məhsul istehsalçılarına istifadə etdikləri yanacaq, motor yağlarına görə yardımların və gübrələrin verilməsi davam etdirilib, onlara 208 tondan artıq gübrə verilib, yazlıq əkinlə bağlı 5300 manat həcmində vəsait ödənilib.

Məlumatda bildirilir ki, bu ilin məhsulu üçün ötən ilin payızında 1389 hektar, cari ilin yazında isə 202 hektar sahədə taxıl əkini aparılıb. Artıq taxıl tədarükü başa çatıb. Şahbuzlu taxılçılar 4252 ton məhsula sahib olublar. Torpaq mülkiyyətçiləri digər əkinçilik sahələrində də bol məhsul istehsal etmək üçün hərtərəfli dövlət qayğısından bəhrələniblər. Belə ki, cari ildə 426 hektar sahədə kartof, 164 hektar sahədə tərəvəz, 243 hektar sahədə dənli-paxlalı, 9 hektar sahədə bostan bitkiləri və 217 hektar sahədə digər əkinlər aparılıb. Kənd adamlarının erkən yazdan çəkdikləri zəhmət hədər getməyib. Bu günədək 250 hektar sahənin məhsulu toplanılıb.

Meyvəçiliyin inkişafı da diqqət mərkəzində saxlanılıb, meyvə bağlarından 936 ton məhsul yığılıb ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə çoxdur. Cari ildə yaşıllaşdırma tədbirləri davam etdirilib, 3,3 hektar sahədə yeni bağ salınıb, 0,8 hektar sahədə bərpa işləri aparılıb, 4660 ədəd yeni meyvə, 420 üzüm tingi əkilib.

✍ **Muxtar MƏMMƏDOV**

## Torpaq mülkiyyətçilərinin iştirakı ilə maarifləndirici tədbir

Sədərək rayonunun Heydərabad qəsəbəsində “Məcburi dövlət sosial sığorta haqlarının mahiyyəti və bu sahədə tətbiq olunan mütərəqqi üsullar” mövzusunda keçirilən maarifləndirici tədbiri Sədərək Rayon İcra Hakimiyyətinin şöbə müdiri Samil Kazımov açıb.

Fondun Sədərək rayon şöbəsinin müdiri Nəsimi Rzayev kənd təsərrüfatına yararlı torpaqları istifadə edən torpaq mülkiyyətçiləri tərəfindən ödənilən məcburi dövlət sosial sığorta haqlarının mahiyyəti və bu sahədə tətbiq olunan elektron xidmətlər haqqında tədbir iştirakçılarına məlumat verib.

Qeyd edilib ki, ödəyicilər məcburi dövlət sosial sığorta haqlarını həm fondun internet səhifəsindən plastik bankomat kartları vasitəsilə, həm banklarda nağd qaydada onlayn üsulla, həm də yerli poçt şöbələri vasitəsilə ödəyə bilərlər.

Sonra mövzu ətrafında çıxışlar olub. Çıxışlarda mülkiyyətində kənd təsərrüfatına yararlı torpaq sahəsi olan torpaq mülkiyyətçilərinin fondun fərdi uçot sistemində qeydiyyata alınması və bu sahədə elektron xidmətin tətbiqindən, sığorta-pensiya sistemi ilə bağlı qanunvericiliyin pozulmasına görə qanunvericilikdə nəzərdə tutulmuş inzibati cərimələrdən, Sədərək rayonunda torpaq üzərində mülkiyyət hüquqlarının qeydiyyatının zəruriliyindən bəhs olunub.

Sonda tədbir iştirakçılarını maraqlandıran suallar cavablandırılıb.

Qeyd edək ki, tədbir Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun Sədərək rayon şöbəsinin və Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsinin Sədərək Rayon İdarəsinin təşkilatçılığı ilə keçirilib.

**Xəbərlər şöbəsi**

*Təhsil millətin gələcəyidir*

# Ulu öndər Heydər Əliyevin adını daşıyan məktəbin uğurları daha da artır




***Müstəqillik illərində Azərbaycan təhsili yeni inkişaf mərhələsinə qədəm qoyub. Bu gün də ulu öndərin siyasi xəttini bütün sahələrdə uğurla davam etdirən ölkə başçısı cənab İlham Əliyevin diqqət və qayğısı sayəsində təhsilin inkişafı dövlət siyasətinin prioritet istiqaməti kimi müəyyənləşdirilib.***

Belə qayğının ifadəsidir ki, son illər muxtar respublikada 200-dən artıq təhsil müəssisəsi tikilib və ya əsaslı şəkildə yenidən qurulub, məktəblər ən müasir tədris avadanlıqları və informasiya-kommunikasiya texnologiyaları ilə təchiz olunub. Həyata keçirilən tədbirlər məzunların buraxılış imtahanlarında yüksək nəticələr əldə etmələrinə şərait yaradıb.

Artıq məktəblər müasir informasiya-kommunikasiya texnologiyaları və zəngin kitabxana fondu ilə təchiz olunub. Bu günədək ümumtəhsil məktəblərində 700-dək elektron lövhə və 4 minədək kompüter quraşdırılıb.

Müasir maddi-texniki bazanın formalaşdırılması təhsildə mütərəqqi üsulların tətbiqinə geniş imkanlar açıb. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Muxtar Respublikasının təhsil müəssisələrində elektron təhsilin təşkili ilə bağlı əlavə tədbirlər haqqında" 2014-cü il 20 iyun tarixli Sərəncamının icrası artıq öz bəhrəsini verir. Bu istiqamətdə həyata keçirilən tədbirlər nəticəsində Azərbaycanın tarixi, mədəniyyəti ilə bağlı fənlərin tədrisi prosesində muzeylərlə təhsil müəssisələri arasında interaktiv əlaqələr təşkil edilir, gənclər elmi biliklərlə yanaşı, milli və mənəvi dəyərlərimizi, tariximizi, mədəniyyətimizi ən mütərəqqi üsullarla mənimsəyirlər. Bütün bunlar təhsildə qazanılan uğurların sayını getdikcə artırır. Konkret bir tədris müəssisəsinin timsalında əldə olunan nailiyyətlər barədə danışmazdan əvvəl bir qədər geriyə qayıdaq...

2004-cü il sentyabrın 2-si. Muxtar respublika sakinlərinin yaddaşında uzun müddət yaşayacaq unudulmaz bir tarix. Həmin gün Naxçıvan şəhərində müstəqil Azərbaycanın memarı və qurucusu ulu öndərimiz Heydər Əliyevin adını daşıyan təhsil ocağının möhtəşəm binası istifadəyə verildi. Bu, sadəcə, bir məktəb binasının istifadəyə verilməsi deyildi, ümummilli liderimizin təşəbbüsü ilə tikilən və onun adına ucaldılan bir abidənin açılışı idi. Açılış mərasimində iştirak edən dövlət başçısı demişdir: ***"Bu məktəb çox yüksək səviyyədə tikilmiş və ən müasir dünya standartlarına cavab verir. Bu həm memarlıq baxımından gözəl binadır, eyni zamanda burada yüksək səviyyədə təhsil almaq üçün hər cür şərait vardır. Bu məktəbin tikintisi xalqımızın ümummilli lideri Heydər Əliyevin təşəbbüsü ilə başlanıb. Heydər Əliyev bu məktəbin tikintisinə çox böyük diqqətlə yanaşırdı, istəyirdi ki, bu təhsil ocağı Azərbaycanda bir nömrəli məktəb olsun".***

Ölkə başçısının bu sözləri pedaqoji kollektivin məsuliyyətini daha da artırıb. Bu isə yüksək nəticələr qazanılmasına imkan verib. Məktəb 2007-2008-ci tədris ilinin yekununa görə, ölkəmizdə "Ən yaxşı ümumtəhsil məktəbi" müsabiqəsinin qalibi olub. Məhz belə yüksək nəticələrə görə də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun "Heydər Əliyev adına tam orta məktəbin yaradılmasının 10 illiyinin qeyd olunması haqqında" 2014-cü il 21 avqust tarixli Sərəncamına əsasən yubiley tədbiri keçirilib.

Bəli, 13 ildir ki, məktəbin kollektivi təhsil ocağında ölkə Prezidentinin və Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin tövsiyələrinə əməl edərək milli təhsilimizin tərəqqisi naminə çalışır, müstəqil dövlətimizin gələcəyi üçün bilikli, vətənpərvər, müstəqilliyimizin keşiyində durmağı vətəndaşlıq borcuna çevirən gənclər yetişdirilməsi üçün bütün imkanlarını səfərbər edir. Məktəbin müəllimləri unutmurlar ki, burada görülən hər bir iş ulu öndərin adına, Onun ideyalarına layiq olmalıdır. 13 il ərzində məktəbi yüksək qiymətlərlə bitirənlərdən fərqlənmə attestatı, "Qızıl" və "Gümüş" medal alan məzunlar etimadı yüksək səviyyədə doğruldublar. Məktəbin şagirdlərindən birinin adı Naxçıvan Muxtar Respublikası Gənc İstedadlarının "Qızıl kitabı"na salınıb.

Təhsil ocağının qazandığı uğurlar belə deməyə əsas verir ki, pedaqoji kollektiv məsuliyyətini dərindən dərk edir, işini dahi rəhbərin adına layiq səviyyədə qurmağa səy göstərir. Elə bu səbəbdəndir ki, Azərbaycan Respublikası Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının statistik məlumatlarında Heydər Əliyev adına tam orta məktəb ölkəmizin ən yaxşı məktəbləri sırasında layiqli yerini qorumaqdadır.

Məzunlar cari ildə məktəbin tarixinə yeni uğurlar yazıblar. Belə ki, 2016-2017-ci tədris ilində məktəbi bitirən məzunların 98 faizi ali məktəb tələbəsi adına layiq görülüb. Onlardan 11 nəfəri 500-700, 4 nəfəri isə 550-700 intervalında bal toplayıb. Məzunlardan 4 nəfər fərqlənmə attestatı, 1 nəfər isə "Qızıl" medal ilə məktəbi başa vurub.

614 balla Naxçıvan Dövlət Universitetinin Riyaziyyat-informatika ixtisasına qəbul olunmuş Turac Hüseynzadə sevincini bizimlə bölüşdü:

– Bütün abituriyentlər yüksək bal toplamaq arzusunda olur. Onların hamısı uğurla nəticə əldə edərək həm ailəsini, müəllimlərini sevindirmək, həm də istədikləri təhsil ocağında seçdikləri ixtisasda təhsil almaq haqqı qazanmaq istəyir. Lakin abituriyent bu sevinci, sadəcə, yaxşı çalışaraq yaşaya bilər. Mən də arzuma bu yolla çatdım, ali məktəblərə qəbul imtahanlarında 614 bal toplamağa müvəffəq oldum. Bundan sonrakı hədəfim vətənə layiqli bir övlad kimi yetişmək, cəmiyyətdə layiqli yer tutmaqdır. Ümumtəhsil məktəblərini bitirərək ali məktəblərə qəbul imtahanlarında yüksək bal toplamış tələbələrlə görüş zamanı Ali Məclis Sədrinin bizə verdiyi qiymətli tövsiyələr gələcək təhsilimizdə, həyat yollarımızda əməl etməliyik.

Yüksək bal toplayan məzunlardan Elcan Yaqubzadə ilə də həmsöhbət olduq. O dedi:

– 611 balla Azərbaycan Dövlət İqtisad Universitetinin Mühasibat uçotu və audit ixtisasına qəbul olunmuşam. Heç bir əziyyət bəhrəsiz qalmır. Gecəni gündüzə qataraq oxudum və nəhayət, arzuladığım sahə üzrə təhsil almaq mənə qismət oldu. Bundan sonra da yorulmadan çalışacaq, vətənə, millətə xeyirli övlad olacağam.

Yeri gəlmişkən onu da qeyd edək ki, qazanılan uğurlarda başlıca sima olan müəllimlərin əməyi layiqincə qiymətləndirilib. Məktəbin 4 müəllimi Azərbaycan Respublikasının, 4 müəllimi "Naxçıvan Muxtar Respublikasının Əməkdar müəllimi" fəxri adına layiq görülüb, 4 müəllimi "Tərəqqi" medalı ilə təltif edilib, 1 müəllimi isə "İlin ən yaxşı müəllimi" müsabiqəsinin qalibi olub.

*Qazanılan uğurlar belə deməyə tam əminlik yaradır ki, Heydər Əliyev adına tam orta məktəbin kollektivi bundan sonra da ölkəmizin qabaqcıl təhsil ocaqları sırasında öz yerini qoruyacaq, məktəbin məzunları daha böyük uğurlara imza atacaqlar.*

**Fatma BABAYEVA**

# Muzey bələdçiləri üçün növbəti seminar-treninq

***Muzey bələdçiləri üçün seminar-treninqlərin keçirilməsi davam etdirilir. Növbəti belə tədbir Heydər Əliyev Muzeyində olub.***

Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin təşkilatçılığı ilə keçirilən seminar-treninqdə nazirliyin Mədəni irs və muzey işi üzrə baş məsləhətçisi Qumral Məmiyeva "Muzey bələdçisinin davranış qaydaları" mövzusunda çıxış edərək bildirib ki, ötən ildən başlayaraq keçirilən muzey bələdçiləri üçün seminar-treninqlərin əsas məqsədi muzeylərdə ekskursiya işinin təşkili ilə bağlı muzey bələdçilərinin nəzəri və praktik bilik səviyyəsini yüksəltməkdir. Bu tədbirlər zamanı bələdçilər vəzifə funksiyalarını dərindən öyrənməyə səy göstərməklə yanaşı, muzey işi haqqında da ətraflı məlumat alıblar. Eyni zamanda seminar-treninqlər muzey işçilərinin qədim diyarımızın bütün bölgələrində yerləşən muzeylərlə tanış olmasına şərait yaratmaq baxımından da əhəmiyyətlidir.

Bildirilib ki, muxtar respublikamızda muzey fəaliyyətinin yüksək səviyyədə təşkil edilməsi üçün ardıcıl tədbirlər həyata keçirilir. Muzeylərimiz üçün yeni binaların inşa olunması, onların təmiri, yenidən qurulması və maddi-texniki bazasının möhkəmləndirilməsi işin səviyyəsinin yüksəldilməsinə xidmət edir.

Diqqətə çatdırılıb ki, muzey bələdçiləri muzey işi və muxtar respublikada gedən yeniliklərdən xəbərdar olmalı, sualları elmi əsaslarla cavablandırmalıdırlar. Bu gün muxtar respublikamıza gələn turistlərə qədim diyarımız haqqında ətraflı məlumat vermək üçün muzey bələdçisi daim öz üzərində çalışmalı, tariximizi və mədəniyyətimizi dərindən bilməlidir. 2017-ci ilin birinci yarımilində muzeylərimizdə 217 mindən çox ziyarətçi olmuşdur ki, bunun da 45 minə yaxını xarici ölkə vətəndaşıdır. Ötən yarımildə muzeylərimizə 800-ə yaxın eksponat daxil olmuşdur. Vətəndaşlar tərəfindən muzeylərimizə təqdim edilən eksponatlar bu sahədə müsbət nəticələrin olduğunu göstərir.

Sonra Heydər Əliyev Muzeyinin bələdçisinin təqdimatında ekspozisiyaya baxış olub.

Sonda ekskursiya mətni müzakirə edilib, metodik tövsiyələr verilib.

Qeyd edək ki, muzeylərdə seminar-treninqlər ilin sonunadək davam etdiriləcəkdir.

**Əli RZAYEV**

***Tarixin öyrənilməsində insanların yaşadığı dövrlərin təyin edilməsi, məişəti, istifadə etdikləri əmək alətləri haqqında məlumatlar, arxeoloji abidələrin tədqiq olunması böyük əhəmiyyət kəsb edir. Ölkəmiz müstəqillik əldə etdikdən sonra bu sahəyə diqqət artırılmış, tariximizin elmi əsaslarla öyrənilməsinə qayğı ilə yanaşılmışdır.***

*Yeni arxeoloji tapıntılar*

# Nəcəfəli Dizə qalası və yaşayış yeri



Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Muxtar Respublikası ərazisindəki tarix və mədəniyyət abidələrinin pasportlaşdırılması və qorunması işinin təşkili haqqında" imzaladığı Sərəncama əsasən 1200-dən artıq tarix və mədəniyyət abidəsi qeydə alınmışdır ki, bunların da əksəriyyəti arxeoloji abidələrdir.

Ali Məclis Sədrinin "Ümummilli lider Heydər Əliyevin anadan olmasının 85 illik yubileyinin Naxçıvan Muxtar Respublikasında keçirilməsi ilə əlaqədar Tədbirlər Planı"na uyğun olaraq 2008-ci ildə "Naxçıvan abidələri" ensiklopediyası nəşr edilmişdir. Həmin il AMEA-nın müxbir üzvü Vəli Baxşəliyevin "Naxçıvanın arxeoloji abidələri" kitabı çapdan çıxmışdır.

Ötən doqquz il ərzində Vəli Baxşəliyevin rəhbərliyi ilə Naxçıvan-Fransa, Naxçıvan-ABŞ birgə arxeoloji ekspedisiyaları və digər arxeoloqlar tərəfindən muxtar respublika ərazisində və eləcə də Babək rayonunda arxeoloji tədqiqatlar aparılmış, bunların əsasında yeni elmi əsərlər yazılmışdır. Ötən dövr ərzində bir sıra yeni abidə aşkarlanmış, səthi baxış keçirilmiş, bunlardan Zirincli, Uzunoba, Yeniyol, Şorsu, Uçan ağıl abidələrində qazıntı işləri aparılmışdır. 2016-cı ildə aşkarlanan "Naxçıvan" abidəsində aparılan qazıntıların nəticəsi Naxçıvan tarixinə önəmli töhfə olmuşdur.

Bütün bunlara baxmayaraq, ərazimizdə aşkarlanmayan, tədqiqata ehtiyacı olan abidələr çoxdur. Bunlardan biri də yeni aşkarlanan "Nəcəfəli Dizə qalası"dır.

Qahab kəndindən Nəhəcirə gedən avtomobil yolunun sağ tərəfində əhalinin "Plovtəpə" adlandırdığı təpə vardır. Təpə ilə yolun ara hissəsində qədim divar qalığı uzaqdan seçilir. Qalıqlar əvvəllər arxeoloqların nəzərini cəlb etsə də, təyinat haqda yekdil bir fikir yoxdur. Divarın xırda daşları tikinti üçün seçilib aparılsa da, iri daşlardan ibarət qalıqlar yaxşı izlənir. Plovtəpənin qərb hissəsində divar 90 dərəcə bucaq altında şimala tərəf dönür. Yerli sakinlər əvvəllər onun Nəhəcir kəndinə qədər 5-6 kilometrlik məsafədə uzandığını söyləyirlər. Tikilinin yaxınlığında kiçik keramika parçaları Antik dövrə və orta əsrlərə aiddir.

Plovtəpənin cənub hissəsində Əshabi-Kəhf dağının şimalından başlanan quru çay dərəsi vardır. Çay dərəsinə paralel olaraq Əshabi-Kəhf dağından Nəcəfəli Dizə kəndinə qədər yüksək təpə tirəsi uzanır. Cənub-şərqdən şimal-qərbə doğru üç kilometrə yaxın uzanan təpələrin quzey yamacı daha dik olub, üzərində qaya parçalarından ibarət örtük vardır. Təpənin qərb qurtaracağına yaxın dərənin sağ hissəsində kəhriz var idi. Haliyədə kəhrizin suyu Nəcəfəli Dizə kəndinə çəkilmişdir. Təpənin şimal hissəsində, bir kilometrə yaxın məsafədə müxtəlif tikili qalıqları izlənilir. Evlər, əsasən, dördkünc olub, dağ daşlarından tikilmişdir. Qərb hissədə binalar daha sıx olub, çay dərəsinin sol sahilindən təpənin üzərinə qədər 300-400 metr enində ərazini əhatə edir.

Evlər bir-birinə yaxın tikilmişdir. Ərazidə müxtəlif küpə, kasa, çölmək, səhəng qırıqlarından ibarət keramikalar mövcuddur. Keramika parçaları daha böyük olub, əksəriyyəti müxtəlif formalara malikdir. Saxsıdan hazırlanıb, üzəri naxışlanmış müxtəlif ölçülü çox sayda qapaqların qırıqları vardır.

Təpənin üst hissəsi isə hamardır. Eni 40-60 metr arasındadır. Qərb hissəndə cənuba tərəf genişlənən sahədə bir çox yerlərdə təbii qala divarları yaranmışdır. Təpənin üzərində 300 metrə qədər məsafədə maddi-mədəniyyət qalıqları olsa da, qərb hissədə son 100 metr fərqlidir. Bu hissə dar bir boğazla şərq hissədən ayrılır. 4-5 hektara yaxın bu ərazidə dördkünc bina qalıqları olmaqla maddi-mədəniyyət nümunələri də çoxdur. Təbii qayalardan ibarət qala divarlarının əlavə olaraq hörülüb möhkəmləndiyi aydın seçilir. Görünür ki, bura yaşayış yerinin narınqalası rolunu oynamışdır. Təpənin cənub yamacında, qala divarlarından eşikdə maddi-mədəniyyət qalıqları ilə zənginləşən qalın kül təbəqəsi vardır. Vəhşi heyvanların oyub yuva açdığı yerlərdə təbəqənin qalınlığı 3-4 metrə yaxındır. Burada çox nəfis və qeyri-adi rəngli şirli qab qırıqları mövcuddur. Bu ərazidə kül qalığının çoxluğuna görə keramikanın bişirilməsi qənaətinə gəlmək olar.

Ərazidə olan keramika nümunələri şimal-qərb hissədə Son Dəmir, Antik və orta əsrlərə aiddir. Antik dövr keramikaları qəhvəyi rəngli olub, yaxşı cilalanmışdır. Həm hasarın yaxınlığında, həm də qalada Eneolit dövrünə aid bir neçə ədəd forma verməyən keramika və obsidian (dəvəgözü) aşkarlanmışdır.

Qalanın üst hissəsində geoloqlar tərəfindən bir neçə uzun xəndək qazılmışdır. Müxtəlif yerlərdə texnika və əl üsulu ilə abidə dağıdılmışdır. Abidədə daha geniş arxeoloji tədqiqatlara ehtiyac vardır.

Maraqlıdır ki, yerli sakinlər qalada – təpənin üstündə çox sərin "Zinəbulaq" adlanan bir bulağın çıxdığını və bulağın ətrafında bir neçə qaraağac və tut ağacının olduğunu deyirlər. Belə ki, qala içməli su ilə birbaşa içəridən təmin olunurmuş. Yerli sakinlər həm də bulağın suyunun saxsı borularla Nəcəfəli Dizə kəndinə çəkildiyini də söyləyirlər. 1960-cı illərdə kəndin yaxınlığında, həmin təpələrdə qazılan mədən şaxtasından sonra təpənin üzərindəki bulaq qurumuşdur.

Yaşayış yerinin şimal hissəsindən keçən köhnə yol "Əshabi-Kəhf Ziyarətgahı" Dini-Məbədi Abidə Kompleksinə gedən ən qısa yoldur. Bu həm də Sirab-Qahab istiqamətindən Qazançı istiqamətinə uzanan yolun bir hissəsidir.

**Zaleh NOVRUZOV**
***Babək rayonunun Sirab kənd tam orta məktəbinin müəllimi***

El sənəti

## Nənələrimizin boxçalarında qorunan gözəllik

***Xalq yaradıcılığının əsas növlərindən biri olan tikmə qadınların min bir əziyyətlə, həvəslə ərsəyə gətirdiyi bir sənətdir. Bu sənət sayəsində saya üzərində rəngli saplarla xəyali təsvirlər yaradılıb, min bir çalarlı təbiət gözəlliyi əks etdirilib. Məhz buna görə də tikməni "lifli rəssamlıq" da adlandırırlar. Təsviri sənətdə olduğu kimi, tikmələr də müxtəlif növ və üsullara malikdir. Müxtəlif bədii vasitələrlə portret, mənzərə, natürmort və sair tablolar, ornamental əsərlər yaradılıb. Bu sənətin hikməti onun ecazkarlığında, açılmayan səhifələrindədir.***



Bu günlərdə qonşuluqda yaşayan Fatma xalanı ziyarətə getmişdim. Ev sahibəsi çay süfrəsi arxasına keçməyim üçün çox təkid etdi. Elə bu vaxt stolun üstünə salınmış süfrə nəzərimi çəkdi. Gözlərimi süfrədən ayıra bilmədim. Bunu görən Fatma xala dedi ki, nə çox baxırsan, bala? Bu, mənim rəhmətlik nənəmdən anama qalıb. Anam da heç kimə qıymadığı bu zərifnaxışlı örtüyü mənə verib ki, yadigar qalsın. Hə bala, bu örtüyü əziz qonağım gələndə işlədirəm.

Bu zərif əl işinə olan heyranlığım məni Culfa Rayon Mədəniyyət və Turizm Şöbəsinin nəzdində fəaliyyət göstərən Gülüstan kənd mədəniyyət evinin bədii rəhbəri Aidə İbrahimovanın çalışdığı mədəniyyət müəssisəsinə gətirdi. Eşitmişdim ki, bu sənətlə məşğul olan qadınlar arasında Aidə xanımın öz yeri var. Onunla görüşüb həmsöhbət olduq:

***– Aidə xanım, hər bir sənətin öz dili var. Xalq yaradıcılığının məhsulu olan tikmə sənətində cəmiyyətin inkişaf mərhələsi xarakteri və tarixi necə əks olunub?***

– Azərbaycan məişətində güləbətin, saya, naxışlı bədii tikmə, təkəlduz, "quşgözü" texnikasında tikmə, metal-muncuqlu tikmə, pilək tikmə, çaxma pilək (buna zərənduz da deyirlər), doldurma tikmə növləri olub. Bu zərif əl işlərində xalqımızın tarixi, mədəniyyəti dolğun əksini tapıb.

Bu gün də Azərbaycanın bir çox yerlərində kökü qədim dövrlərə gedən bədii tikmə sənəti qorunub saxlanılır. Sənətkarların əl işləri beynəlxalq sərgi və muzeylərin ekspozisiyasını bəzəyir.

Tikmə sənəti əsrlər boyu qadınların sevimli məşğuliyyəti sayılıb. Təkəlduz tikmə ilə kişilər də məşğul olub. Zamanında ən dəyərli sərvət sayılan bu gözəl nümunələr nəsildən-nəslə keçərək bu günümüzədək gəlib çıxıb. Tikmə elə bir sənət növüdür ki, onunla həm sadə xalq içindən çıxmış insanlar, həm də zəngin təbəqəyə malik olan qadınlar məşğul olurdular.

Bədii tikmə sənətində zərgər dəqiqliyi tələb edən rəssamlıq, yüksək rəng duyumu olmalıdır. İşlənilən sap və materiallara ciddi fikir verilməlidir. Bu sənət növünə olan marağın artmasına səbəb dövlətimizin yaradıcı insanlara göstərdiyi diqqət və qayğıdır. Bunun üçün öz tariximizi, mədəniyyətimizi tablolarda, geyimlərdə, ev əşyalarında yaşatmağa çalışıram. Bu sənətin texnikasını mükəmməl bilmək üçün daim axtarışda oluram. Naxçıvanlı qadınların dünyagörüşü, estetik zövqünün yüksək olması bu sənətin daha mükəmməl işlənməsinə şərait yaradıb. Qadınların istifadə etdiyi küləcələrdə güləbətin tikmələrə üstünlük verilir.

Tikmənin növləri çoxdur. "Quşgözü" və sair tikmələrdə naxış elementləri düzgün seçilməlidir. Mən öz əl işlərimdə Naxçıvan Muxtar Respublikasında olan dünya əhəmiyyətli abidələri – Möminə xatın, Gülüstan türbəsi və sair kimi abidələrimizin üzərindəki naxış elementlərindən istifadə edirəm.

Hər bir əsərdə eskizlər hazırlanır, rənglər düzgün seçilir, naxış elementlərindən istifadə olunur. Əl işlərimdən birində Gəmiqayadakı qayaüstü rəsmlərdən istifadə etmişəm.

Muxtar respublikada keçirilən xalq yaradıcılığı günlərində də iştirak edirəm. Əməyim dövlətimiz tərəfindən yüksək qiymətləndirilib. Belə ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı ilə "Rəşadətli əməyə görə" nişanı ilə təltif olunmuşam.

***– Yaradıcılığınızda ən çox buta naxış elementinə üstünlük verirsiniz. Burada məqsəd nədən ibarətdir?***

– Buta naxış elementi alov məkanında işlənir. Odlar yurdumuzun simvoludur. "Odlar yurdu" adlı bir əl işim var. Rəng seçimlərinə, həm də qoşa quş təsvirinə yer ayırmışam. Xalça və tikmələrimizdə bu naxışdan yetərincə istifadə olunub. Xalçaçı rəssam Lətif Kərimovun yaradıcılığında butaya geniş yer verilib. Qeyd etmək lazımdır ki, bu naxışdan hər yerdə istifadə etmək olmaz. Küsülü buta, sevgili buta var, onların da hər birinin özünəməxsus xüsusiyyətləri mövcuddur.

Mən həm də Culfa Rayon Uşaq-Gənclər Yaradıcılıq Mərkəzində "Bacarıqlı əllər" dərnəyinin rəhbəriyəm. Uşaqlara bu sənətin sirlərini öyrədirəm. Çalışıram ki, uşaqlar asudə vaxtlarını səmərəli keçirsinlər. Həm də onlara başa salıram ki, bu sənətə XIX əsrdə məşhur şair və maarif xadimləri də maraq göstəriblər. Şairə Xurşidbanu Natəvan, təbiətşünas-alim Həsən bəy Zərdabi, rəssam, şair və musiqişünas Mirmöhsün Nəvvab və başqalarını misal göstərmək olar. Xurşidbanu Natəvanın əl işləri Şərqin məşhur rəssamları – Manu və Behzadın əsərlərinə bərabər tutulub.

Qeyd edək ki, bu sənəti yaşadanların həm vaxtları səmərəli keçir, həm də adət-ənənələrimiz, dəyərlərimiz qorunub saxlanılır. Dünyanın ən zərif sənət növlərindən olan tikmə ulu nənələrdən bizə gözəl bir ənənə olaraq ötürülən qiymətli irsdir. Bu sənəti qorumaq, yaşatmaq və gələcək nəsillərə təhvil vermək üçün hər birimiz səylə çalışmalıyıq. Tarixi yüz illərlə ölçülən tikmə sənətimizin ənənələrini bu işlə məşğul olan peşə sahibləri vasitəsilə qoruyub saxlamaq mümkündür. Ümid edirəm ki, milli dəyərlərimiz bu sənətlər vasitəsilə yaşadılacaq, gələcək nəsillərə ərməğan olacaq.

**Adilə SƏFƏROVA**
***Naxçıvan Dövlət Televiziyasının baş redaktoru***

## Uşaqlar kitabxananın xidmətlərindən bəhrələnirlər

Adil Babayev adına Naxçıvan Muxtar Respublika Uşaq Kitabxanası tərəfindən yay mövsümündə dərslərindən geri qalan 30 şagird üçün "Yay oxu zalı" təşkil edilib. I-IV sinif şagirdləri üçün nəzərdə tutulan tədbirlərə iyul ayının 1-dən start verilib və şagirdlərin mütəmadi olaraq iştirakı təmin olunub. Şagirdlər həftədə iki dəfə olmaqla, "Yay oxu zalı"nda iştirak ediblər. Tədbir avqust ayının 25-də yekunlaşacaq. Bu müddət ərzində müəllimlər tərəfindən 100 ədəd dərslikdən istifadə etməklə biliklərin sirləri öyrədilib. Dərslər, əsasən, təcrübəli kitabxanaçılar tərəfindən tədris olunub. Yalnız ingilis dili və riyaziyyat fənlərini Heydər Əliyev adına və Naxçıvan şəhər 4 nömrəli tam orta məktəblərin müəllimləri tədris ediblər. Bu tədbirin təşkili həmin şagirdlərin valideynləri tərəfindən də minnətdarlıqla qarşılanıb.

Bundan başqa, kitabxananın kollektivi yay mövsümündə Naxçıvan şəhərindəki Heydər Əliyev prospektində, "Çənlibel", "Qoçüstü" məhəllələrində, Təbriz, "İstiqlal", Cəlil Məmmədquluzadə, Nizami küçələrindəki binaların həyətlərində və "Böyük bağ" massivində, Heydər Əliyev adına Mədəniyyət və İstirahət Parkında 11 dəfə yeni kitabların sərgisini, mütaliə günlərini təşkil edib. Bu tədbirlərdə min nəfərə yaxın məktəbli iştirak edib, onlardan 200 nəfəri kitabxananın daimi oxucuları sırasına qəbul edilib. Kitabxana əməkdaşları belə oxuculardan olan 19 nəfər fiziki qüsurlu uşağı da unutmayıblar. Belə ki, əməkdaşlar həmin uşaqların evlərində olaraq onlara yeni ədəbiyyatlar və şəkilli jurnallar veriblər.

Yay fəslində keçirilən tədbirlərdən biri də Naxçıvan şəhər 10 nömrəli uşaq bağçası və Polis İdarəsinin Dövlət Yol Polisi Bölməsinin əməkdaşları ilə birgə təşkil edilən "Yaşıl işıq ver, yolu aç" mövzusunda aksiya olub. Uşaqlara yol nişanları, yol hərəkəti qaydaları haqqında məlumat verilib.

Ümumiyyətlə, Naxçıvan şəhərindəki uşaq bağçalarında 15 dəfə "Nağıl günü" təşkil edilib. Burada Azərbaycan xalq nağılları qiraət edilib və cizgi filmləri göstərilib, M.T.Sidqi adına Naxçıvan Dövlət Kukla Teatrının və Naxçıvan Dövlət Uşaq Teatrının kollektivləri maraqlı tamaşalarla uşaqlar qarşısında çıxışlar ediblər.

**Səbuhi HÜSEYNOV**

## Yay günlərində ən əvəzsiz məkanlar şəhərimizin yaşıllıqlarıdır

***Yazın əvvəllərindən sinoptiklər Naxçıvanda kəskin istilərin olacağını proqnozlaşdırmışdılar. İyun ayından başlayaraq bu proqnozlar özünü doğrultdu. Yay fəsli bir-birindən dadlı-tamlı meyvələri ilə bərabər, yüksək temperaturu da gətirdi. Ancaq muxtar respublikada insanların mənzil-məişət, iş və istirahəti üçün yaradılan şərait indi isti yay fəslini də normal keçirməyə imkan verir.***



Təbii ki, isti yay günlərində Naxçıvan şəhərində Günəşin yandırıcı istisindən qorunmaq üçün əsas məkanlar yaşıllıq zolaqları, park və xiyabanlardır. Çünki yaşıllıqlar iqlimi əhəmiyyətli dərəcədə yüngülləşdirir, rütubət və istilik rejimini yaxşılaşdırır, soyuq, isti və quru küləklərin təsirini öz üzərinə götürür. Yaşıllıqlar gecə vaxtı istiliyi nəzərəçarpacaq dərəcədə aşağı salır, gündüzlər tutduğu sahədə havanın temperaturunu azaldır. Məhz buna görə də yayın bərk isti vaxtlarında parklarda, bağlarda havanın temperaturu digər yerlərə nisbətən 2-3 dərəcə aşağı olur. Şəhərin seyrinə çıxdıqda yolların kənarlarında nizamla salınmış yaşıllıqlar, əkilən güllər, dekorativ ağaclar insana zövq verməklə bərabər, həm də yaşadığımız bu diyarın gözəlliyinə xüsusi çalarlar gətirir.

Yaşıllıqların isti yay fəslindəki faydaları nəzərə alınaraq muxtar respublikada bu günlərdə ağaclara xüsusi qayğı göstərilir, onlar hər gün suvarılır, dibləri yumşaldılır, ərazilər kolkosdan təmizlənir. Bütün bu işlərin həyata keçirilməsində Naxçıvan Şəhər Yaşıllaşdırma İdarəsi bağbanlarının, müxtəlif idarə, təşkilat və müəssisələrin əməkdaşlarının, eləcə də ictimaiyyətin əməyini xüsusi qeyd etmək lazımdır. İndi, demək olar ki, hər gün bu insanları park və xiyabanlarımızda alın təri axıdaraq ağaclara qulluq edərkən görmək olar.

Naxçıvan şəhərində aparılan yaşıllaşdırma işləri, bu yaşıllıqların qorunması ilə bağlı Naxçıvan Şəhər Yaşıllaşdırma İdarəsinin müdiri Fətulla Nabatovla həmsöhbət olduq. Öyrəndik ki, yay fəsli başlanandan idarənin işçiləri parklar, xiyabanlar, yol kənarları daxil olmaqla, bütün yaşıllaşdırma ərazilərində fəal iş rejiminə keçiblər. Havaların isti keçməsi onların qayğılarını artırıb. Bu da təbiidir. Çünki illərlə qorunub ərsəyə gəlmiş ağacları, yaşıl örtükləri, təbii və dekorativ gül kollarını qızmar Günəşdən, bürküdən, istidən qorumaq elə də asan deyil. Bu məqsədlə həmin yaşıllıqlar hər gün suvarılır. Bunun üçün bütün suvarma texnikalarından istifadə olunur.

Bu xeyirxah tədbirdə Naxçıvan şəhərinin müvafiq dövlət qurumlarının əməkdaşları da öz vətəndaşlıq borclarını yerinə yetirirlər. Ancaq gəlin görək, Günəşin torpağı, necə deyərlər, qovurduğu bu günlərdə sığındığımız ağac kölgələrini bəzən hansı vəziyyətdə görürük? Bu suala cavab tapmaq o qədər də çətin deyil. Çünki səhər saatlarında park və xiyabanlarda sıra ilə, səliqəylə düzülmüş skamyaların yanından keçərkən sualın cavabı gün kimi aydın olur. Bu skamyalara çətir tutan ağacların diblərinin və səkilərin axşamlar bəzi sakinlər tərəfindən müxtəlif tullantılarla zibilləndiyini görürük. Ağaclara qulluq edən insanlarla söhbət zamanı belə bir fikir hasil olur ki, yayda, demək olar ki, hər gün eyni vəziyyətlə qarşılaşırlar. Bu halın aradan qaldırılması isə vaxt aparır.

Ötən günlərdə parklarımızdan birində həmsöhbət olduğum təqaüdçü Nəzmiyyə Zamanbəyovanın dediklərini xatırlayıram: – Demək olar ki, hər gün nəvəmlə birlikdə parka üz tutur, ağac kölgəsində sərin bir guşə tapıb bir-iki saat vaxt keçiririk. Bəzən müşahidə etdiyim hadisələr, sözün həqiqi mənasında, qəlbimi ağrıdır. Min bir əziyyətlə əkilib-becərilmiş ağacların ya budaqlarını kimsə qırır, ya da diblərini tum və siqaret kötükləri yığnağına çevirirlər. Məncə, belə adamlar təbiətin ən böyük düşmənləridir. Necə ola bilər ki, ağac öz gözəlliyi və təravəti ilə bir insana zövq, nəfəs versin, insan isə bunun qarşılığında o ağaca zərər vursun. Həmişə çalışıram ki, belə hallara qarşı iradımı bildirim, park və xiyabanlarda bizim yaxşı istirahət etməyimiz üçün tər tökən insanların nə qədər zəhmət çəkdiklərini onlara anladım. Əgər hər bir kəs bu məsələdə həssas olsa, onda bu xoşagəlməz halların sayı da az olar. Çünki təbiətə necə münasibət göstəririksə, təbiət də bizə zamanı gələndə eyni qarşılığı verəcəkdir.

*Bəli, bu gün isti yay günlərində Naxçıvan şəhərində yaşıl məkanlar çoxluq təşkil edir. Birlikdə çalışmalıyıq ki, bu məkanları keçirdiyimiz mənalı zamanın qədir-qiymətini biləк, ağacları qoruyaq, belə əraziləri səliqəli saxlayaq. Bu, hər birimizin vətəndaşlıq borcuna çevrilməlidir.*

**N.ƏSGƏROV**

## Elan

Muxtar respublika əhalisi avqustun 25-dən sentyabrın 15-dək Naxçıvan şəhəri Xətai küçəsindəki Mərkəzi bazarda keçiriləcək məktəbli yarmarkasına dəvət edilir.

Məktəbli yarmarkası hər gün saat 9-dan 14-dək əhaliyə xidmət göstərəcəkdir.

Yarmarkada məktəblilərə münasib qiymətlərlə yüksək keyfiyyətdə dərs ləvazimatları, xüsusi geyim və idman formaları, ayaqqabı təklif olunur.

***Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyi***


ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səbuhi Hüseynov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 670